# AĞRININ YADDAŞ ÖMRÜ

*(Əvvəli ötən sayımızda)*

Ermənilərin Azərbaycanlılara qarşı barızmaz düşmən münasibəti son əsrin fonunda faktlarla yada salınır. Bəli, ermənilərin belə bir əməli olub. Müəllif faktı sərlövəyə gətirir: “Həmin Kətikdə 70 il öncə də qadınları süngüyə keçirib Qarqar çayına tökmüşdülər”. Bu faktı yada salandan sonra müəllif məramına uyğun sanki öz filminin titrinə - ekranına başqa bir tarixi serialdan istinad gətirir - “Diriliş Ərtoğrul” serialından: “Torpaq suyla qarışanda palçıq, qanla qarışanda Vətən olur!”.

Ümumiyyətlə, bu tarixi aforizmin mahiyyətinə varmaqla müəllif əsərini Vətən anlamının müqəddəslik fenomenini yaradır. Əlbəttə, faciəni qaçılmaz edən başqa səbəbləri də yaddan çıxarmır. Məsələn, 52 zabiti erməni olan 362 alayı indiyə qədər cəzasız qalan dəhşətli müharibə cinayəti törətmiş bu alayın əməlləri bütün çılpaqlığı ilə çözülür.

Müəllif artıq qeyd etdiyimiz kimi əsərini təzadlar üzərində qurur. Xocalının dinc sakinləri qurban bayramına hazırlaşır. Ancaq onlar bilmirlər ki tale bu dinc insanlar üçün necə bir qurbanlıq meydanı hazırlayıb.

Füzuli belə bir mühitin oğlu idi. Və bu yolu özünün təbii təbiəti ilə seçmişdi. Müəllif o qədər həssas yanaşma ilə qəhrəmanının hisslərini, həyəcanlarını yazıya gətirir ki, nəticədə biz onun hökmü ilə tam razılaşırıq: “Füzuli qürur idi, vicdan idi, namus idi...” göründüyü kimi müəllif qürurlu idi, vicdanlı idi, namuslu idi demir. Bu əxlaqi kateqoriyaları bir başa obraza çevirir. Və bu fonda gələcək nəsillər üçün örnək olacaq qəhrəmanını aydınlığı ilə göstərə bilir. Naxçıvanik, Qara qaya altı yerlərdə baş verənlər min il keçsə də gərək bizim yaddaşımızdan silinməsin. “İgid ömrü” əsəri məhz bunu deyir. Körpələrin ağzının qapadılması, yaralıların dişlərini bir-birinə səxəb ağrını öz içlərində boğmaları... bütün bunları necə unutmaq olar. Ona görə Füzuliyə Milli Qəhrəman adı halaldır ki, o, son ana qədər döyüş əzmini qorumuşdu. Çünki faciənin baş qəhrəmanı idi. Bəli, bu müəllif qənaətində belədir. Əlbəttə, tarixdən, tarixi hadisədən gələn qənaətində... Çünki Füzuli Rüstəmov Vətəninin taleyini öz taleyi kimi yaşayırdı. Qarabağın, Xocalının ağrısını öz canında hiss edirdi. Əsərdəki obrazlardan biri - Adilənin dediyi kimi elə bil onun yuxusu yox idi. daha bu qədər ağrını canında daşıyan insanın yuxusu haradan olsun?! Bu yerdə müəllif müasirimiz olan tanınmış şairə Nəzakət Məmmədovanın “Şəhid zirvəsi” şeirindən bir bənd epiqraf gətirir:

Vətən çırpınırdı ağrı içində,  
Qıvrıla-qıvrıla qalmışdı yollar.  
Qeyrət qılıncını çəkib gedirdi  
Vətəni anatək sevən oğullar!

Və bu da təsadüfi deyil. Müəllif əsərini pandemiya qadağaları ilə müşayiət olunan ərəfədə yazıb. Sanki Vətəni sevən oğulların inamına güvənclə öz iradəsini səfərbər edib. Canlı müsahibələr, xatirələr, müəllif düşüncələri bir-birini əvəz edir. Və biz bütün əsər boyu (əvvəldə dediyimiz kimi sanki sənədli filmin görüntüləri ilə) Füzulinin əzəmətli obrazını görməkdəyik. Bir də belə bir müşahidəni də qeyd etmək olar. Müəllifin təqdimatında Füzuli o qədər möhtəşəm, basılmaz görünür ki, ermənilər onu özlərinin şəxsi düşməni kimi dərk edirlər. çünki Füzuli əsil oğuluydu oğul. Əsərdə Axısxa türklərinin acı taleyi son dərəcə sərrast mənzərələrlə təsvir olunur. Əsər boyu çoxlu adlar diqqətimizdən keçir. Nazim, Sərvər, Eldar, Cabbar, İman, Kərim, Şahmar, Şahin, Cəmşid, Zamin, Fərhad, Xaqani, Balaca Aygün, Tofiq Aslanov, Cavid Əliyev, Qatırməmməd - Yaqub Rzayev, Famil Hüseynov, Arzu Usubova, döyüşçü Aqil, Kərəm Quluyev, Zeynal, Həsən, Zahir, Xocalılı Əli, Süsən Cəfərova... eləcə də, mənfur düşmən obrazları Robet Köçəryan, Zori Balayan... onların hər biri öz təbiəti ilə görünür. Bir tərəfi humanizmi, vətəninə sevgisi, digər tərəf qəddarlığı, qəsbkarlığı, işğalçılığı ilə yadda qalır.

“Qarabağın döyünən ürəyi - Xocalı”... belə bir başlıq diqqətimizi çəkir. Burada o vaxt Xocalının prokroru olmuş Atakişi Atakişiyevin Füzuli Rüstəmov haqqında təəssüratlarını da oxuyuruq. Çünki o da Füzulini yaxşı tanıyırdı. Əsərin dəyərini, tarixi əhəmiyyətini göstərən faktlardan biri də Atakişi Atakişiyevin vurduğu teleqramların diqqətə çəkilməsidir. Atakişi müəllimin yanğı ilə danışdıqları - Füzuli Rüstəmovun obrazını gözlərimiz önündə canlandıran xatirələri bizi birəl-birəl Xocalı günlərinə qaytarır.

Müəllif Xocalını təkcə Qarabağ ərazisi kimi yox, strateji məntəqə kimi yox, həm də tarixi abidələr kimi diqqətə çəkir. Xocalı qəhrəmanlarının mübarizəsində əsas məqsəd, məram kimi bu amili vacib hesab edir. Füzulinin və digər Xocalı qəhrəmanların bitkinliyini, bütövlüyünü onların geri dönməzliyi ilə təsdiqlənir. Sanki onların həyatı kamikadze həyatıdır. 25-lərin taleyi xatırlanır. Müdafiəçilər əslində adları ilə yox, elə bu rəqəmdə ifadə olunmuş mahiyyətlə idarə olunurlar. Sanki onların hər biri Xocalının özüdür, Füzuli Rüstəmovun özüdür. Müəllif yeri gəldikcə poetik örnəklərdən də bəhrələnir. Musa Yaqubun bir şeirini oxucu ovqatına uyğun təqdim edir:

Nə biləndər, nə halıyam,  
Olum, ölüm sualıyam.  
Açılmış ulduz falıyam  
Yozanı varsa, mən kiməm?

Nəzirməmməd Qarabağ mövzusunda yazan müəlliflərin ən xoşbəxtlərindən biridir. Çünki əsərinin sonuna doğru yazılarında artıq İkinci Qarabağ müharibəsində qələbəni, Şuşa zəfərini tərənnüm edir.Hətta qəhrəmanlarından birini topçu Vüsalla müqayisə edir - Zamini. Bunu da adi, sıradan bir fakt kimi yox, iki müharibənin varislik əlaqəsi kimi qavrayırıq. Bu günün qəhrəmanları dünənki qəhrəmanların davamıdır, onların övladlarıdır, onların ruh daşıyıcılarıdır.

Kitabın 3-cü bölümü “Füzuli doğmaların xatirələrində” adlanır. Əvəzin, Tofiqin... digərlərinin təəssüratları ilə hadisələrin bağlılığını qoruyur. Sanki zamanı qaytarıb dövrümüzə gətirir, tarixi təzədən canlandırır. Bir sözlə, düşüncələrində zaman maşınını idarə edir. Bu fonda onun belə bir ifadəsini gərək qeyd edək: “Qızıl kitaba yazdın adını, Füzuli!..” əgər Rəfik Özdək sayağı desək, bu türkün qızıl kitabıdır. Füzulinin adını yaşadacaq kitabı. Əsərin obrazlarından biri Rəşad Baxşəliyevin dediyi kimi bizim qəhrəmanlarımızda “güc və qorxmazlıq vəhdətdəydi”.

Müəllif əsərin yaxınına gəldiy qənaətini əslində əsər boyu davam etdirib. O Füzulinin qəhrəmanlığını xilaskarlıq missiyası kimi görür və belə də təqdim edir.

Əgər belə demək mümkünsə, müəllif sonsuz iztirablar, böyük faciəni yaşamış insanlarla görüşlərin




həyəcanları altında yazdığı əsərini qəhrəman Füzuliyə son sözüm düşüncələri ilə bitirir: “Hamımız ayrı-ayrı qəhrəmanlarımız haqqında müəyyən təbəddülatlardan xəbərdarıq. Ancaq onların igidlikləri də daxil həyat fəlsəfəsini bu qədər dərindən izləmək, başa düşmək imkanına malik deyilik. Çünki bu detalların hər birinin Füzulinin həyatını çözdüyümüz qədər Azərbaycan Milli Qəhrəmanı Füzuli Salah oğlu Rüstəmov haqqında bu araşdırma-kitabı Böyük Yaradanın izni ilə ərsəyə gətirməyimdən çox məmnunam. Bu nəcib əməli işə - “Şəhidlər ölməz, Vətən bölünməz” seriyasından növbəti, sənədli povestin yazılmasına dəvət olunduğum üçün layihənin rəhbəri, Xatirə kitabı redaksiyasının baş redaktoru, tanınmış şairə Nəzakət xanım Məmmədovaya təşəkkür edirəm”. Bu adi etiraf deyil, yazıçı iztirablarının sözə gələn səsidir...

...Və müəllif igidliklə şəhidliyin vəhdətində dayanır. Bu artıq zirvədir. Zaman-zaman hər kəsi çağıran zirvə. Bu zirvəni Vətənin özü, səsi də Vətənin səsi kimi anlamaq daha düzgün olardı.

...Və son titrlər oxunur... İşıq yanır. Bu işıq ruhumuzdan bütün qaranlıqları qovur. Biz bu işıqda Qarabağı bütün aydınlığı ilə görürük.

...Nəzirməmməd Zöhrablı və onun “İgid ömrü” kitabı...

Bağrına qaramıx tikanı sancılmış bülbülü necə unutmaq olar.

Bu bir yaddaş kitabıdır.

Yadda. Həyatımızın dəyəridir. Yaddaşın yoxdursa, özün də yoxsan.

**05.05.2021**

***Əli Rza XƏLƏFLİ,***  
***şair-publisist***